# TAP beynəlxalq aləmdən getdikcə daha böyük dəstək alır

## *O, prioritet enerji təhlükəsizliyi layihələrinin sırasına daxil edilib*




"Cənub qaz dəhlizi"nin tərkib hissələrindən biri olan TAP-ın (Transadriatik Qaz Boru Kəməri) təməlinin bu ilin may ayında Yunanıstanın Saloniki şəhərində qoyulacağı nəzərdə tutulur. Bu barədə Yunanıstanın məhsuldar istehsal, ətraf mühit və enerji naziri Panos Skurletis xeyli əvvəl məlumat verib.

Hazırda bu məsələ "Cənub qaz dəhlizi" layihəsi tərəfdaşlarının, tranzit ölkələrin, bütün maraqlı tərəflərin diqqət mərkəzindədir. Cari il fevral ayının sonunda layihənin Məşvərət Şurasının Bakıda keçirilən ikinci toplantısında da bu barədə ətraflı məlumat verilib, müzakirələr keçirilib. Prezident İlham Əliyev həmin tədbirdə TANAP-ın (Transanadolu Qaz Boru Kəməri) tikintisinin uğurla davam etdiyini vurğulayıb, TAP-da da işlərin bu cür gedəcəyinə ümidvar olduğunu bildirib: "TANAP layihəsinin həyata keçirilməsi hazırda olduqca fəal mərhələdədir. Əminəm ki, o, vaxtında, hətta cədvəldən əvvəl icra ediləcək. Əlbəttə, istərdim ki, eyni yanaşma Transadriatik layihəsinin həyata keçirilməsində də olsun. Ümid edirəm ki, bu il tikinti işləri başlayacaq və hasilatçılarla əlaqələndirmə sayəsində Cənub qaz boru kəmərinin çəkilməsində məqsədimizə nail olacağıq".

Xatırladaq ki, TAP Türkiyə-Yunanıstan sərhədində yerləşən Kipoi məntəqəsində TANAP-a qovuşacaq. O, Yunanıstan və Albaniyadan keçərək Qərbə doğru - Adriatik dənizinin sahilinə uzanacaq. Kəmərin dənizin altından keçən sualtı hissəsi İtaliyanın cənubunda quruya çıxaraq bir neçə kilometrdən sonra qazpaylama şəbəkəsinə calanacaq.

Uzunluğu 878 kilometr olan TAP-ın 550 kilometri Yunanıstanda, 210 kilometri Albaniyada, 105 kilometri Adriatik dənizinin altında və sonuncu kiçik hissəsi İtaliyanın quru ərazisində yerləşəcək. Layihənin İtaliyada bitməsinə baxmayaraq, gələcəkdə ara keçid boru kəmərləri vasitəsilə İsveçrə, Avstriya, Fransa, Almaniya, Belçika, hətta İngiltərəyə təbii qazın ötürüləcəyinin mümkün olacağı istisna edilmir. TAP-ın əhəmiyyəti həm də ondadır ki, o, Yunanıstan-Bolqarıstan interkonnektoru və İon-Adriatik qaz kəmərinin təchizatını asanlaşdıracaq.

TAP-ın ilkin ötürücülük qabiliyyətinin ildə 10 milyard kubmetr, gələcəkdə isə artırılaraq 20 milyard kubmetrə çatacağı palnlaşdırılır.

"Cənub qaz dəhlizi" Məşvərət Şurasının ikinci iclasında TAP-ın icraçı direktoru İn Bradşav kəmərin bu il tikinti fazasına daxil olacağını bir daha təsdiqlədi və ilk qazın Avropya 2020-ci ilin əvvəlində çatdırılmasının nəzərdə tutulduğunu bildirdi. O dedi: "Cənub qaz dəhlizi" Avropa enerji təhlükəsizliyinin şaxələndirilməsi baxımından böyük əhəmiyyətə malikdir.

***Ardı 3-cü səh.***

# TAP beynəlxalq aləmdən getdikcə daha böyük dəstək alır

*Əvvəli 1-ci səh.*

Lakin bu layihə yalnız TAP kəmərinin ərazisindən keçən ölkələr, Avropa İttifaqı, bizim Transatlantik və Azərbaycandan olan tərəfdaşların dəstəyi ilə həyata keçirilə bilər. Biz bütün tərəfdaşlara dəstəyə görə təşəkkürümüzü bildirir və gələcəkdə onlardan güclü dəstək gözləyirik".

Qeyd edək ki, TAP dünya şöhrətli 6 səhmdarın iştirakı ilə həyata keçirilir və onlardan biri də layihədə 20 faizlik payı olan SOCAR - Azərbaycan Respublikası Dövlət Neft Şirkətidir.

Məlum olduğu kimi, müasir dövrdə karbohidrogen nəqlinin ən münasib və təhlükəsiz üsulu boru kəmərləridir. TAP da məhz belə kəmərdir və istər onun tikintisində, istərsə də istismarında təhlükəsizlik məsələləri xüsusi önəm kəsb edəcək. Məşvərət Şurasının iclasında layihənin icraçı direktoru keçən il aparılan tikintiyə hazırlıq işlərində heç bir qəza baş vermədiyini də diqqətə çatdırdı. O, eyni zamanda qeyd etdi ki, bütün tədarük işləri Avropanın dövlət satınalmaları qaydalarına uyğun həyata keçirilir.

Lakin təbii ki, hər bir böyük kəmər çəkilərkən ətraf mühitə müəyyən təsir edir. Bu təsirin minimum olmasından ötrü hər bu tipli layihə üçün "Ətraf Mühit və Sosial Təsirin Qiymətləndirilməsi" sənədi imzalanır. TAP-a aid bu mühüm sənəd Yunanıstan-Albaniya-İtaliya hökumətləri tərəfindən artıq qəbul edilib. Bu da layihənin reallaşdırılması yolunda bəzi çətinliklərin aradan qaldırılmasında əsas şərtlərdən biridir.

Təsadüfi deyil ki, Nazirlər Kabinetinin bu ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında da TAP layihəsinin necə irəlilədiyi barədə ətraflı məlumat verilib. Sevindirici haldır ki, TAP Avropa Komissiyasının ortaq maraqlarına xidmət edən 33 prioritet enerji təhlükəsizliyi layihəsi siyahısına daxil edilib. Beləliklə, TAP getdikcə beynəlxalq aləmin daha böyük dəstəyini qazanır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***